"Folklor yaradıcılığımızda Qərbi Azərbaycan izləri" rubrikasında Qərbi Zəngəzur da daxil olmaqla Qərbi Azərbaycanın toy adətlərindən danışmaq istəyirik. Milli etnoqrafiyımızda toyun xüsusi yeri var və xalq olaraq toy adət-ənənələrini minilliklərdən bəri yaşadırıq. Azərbaycan toyunun müxtəlif bölgələr üzrə özünəməxsusluqları var və hər bölgədə başqa bölgələrdən fərqli adətlər, ayinlər mövcuddur.

# Qərbi Azərbaycanın toy adətləri - Qərbi Zəngəzur da daxil...



16 mahaldan ibarət olan Qərbi Azərbaycanın hər mahalının özünə məxsus toy adətlərinin olduğu məlumdur.

Armud agacı haça haxışta,
Əlim dolaşdı saça haxışta,
Qardaşıma qurban olum haxışta,
O gedir qaça-qaça haxışta.

Başdan deyək ki, haxıştasız Azərbaycan toylarını təsəvvür etmək olmaz. Qədimlərdən bu bir adət idi ki, indi də bütün bölgələrdə yaşayır.

Adı bəlli Qərbi Azərbaycan ellərində çox maraqlı toy adətləri olub ki, o toylar tarixdə iz salıb, hələ də yaddaşlardan silinməyib. Çox təəssüflər olsun ki, Qərbi azərbycanlıların deportasiyasından sonra ənənəvi toy adətlərinə də müəyyən dəyişikliklər edildi.

Vaxtilə mərhum professor Buludxan Xəlilov müsahibələrindən birində Qərbi Azərbaycanın toy adətlərinə diqqət çəkərək qeyd edirdi ki, toyda görülən bütün işlər ağsaqqal, ağbirçək xeyir-duası ilə baş tutmalı idi. "Toy onda gözəl olur ki, dədə-baba ocağında öz adət-ənənələriylə təşkil olunsun. İrəvan və onun ətraf bölgələrindəki toy adət-ənənələrinin bərpa olunması özümüzə qarşı dəyərin bərpa olunması deməkdir. Qərbi Azərbaycanda özünəməxsus elçilik adət-ənənələri var idi. Ana-atamız kimisə məsləhət görürdüsə deyirdi ki, get o adamın qapısından bir qara daş gətir həyətimizə qoy görək, bunun düşərliliyi olacaq ya yox.

Müqayisə üçün deyə bilərəm ki, türk xalqları içində nanayları oxuyan xalqlar çox azdır. Azərbaycan regionunun Ağbaba bölgəsində xınayaxdıda ən xarakterik mərasimlərdən biri nanayların oxunması idi. İndiki toylarda gəlini çırağın başına fırladırlar. Amma Qərbi Azərbaycan toylarında gəlini ya ocağın, ya da təndirin başına döndərirdilər. Bu, gəlinin öz evindən, ocağından xeyir-dua alması və köçdüyü ocağa aparması demək idi. Toyun əvvəlindən axırına qədər gəlinin üzü duvaq ilə örtülü olurdu. Heç kim gəlinin üzünü görməzdi. Ata evindən köçərkən gəlin özü ilə çörək, sandıq, eyni zamanda bir qazan halva aparardı. Bu, şirinlik əlaməti idi. İndi bu adət-ənənələr bir qədər dəyişib. Bundan əlavə, qız ata evindən gedəndə onun əlinə pul qoyub bağlayardılar. Yəni qız özü ilə getdiyi ocağa ruzi-bərəkət aparsın.

Gəlin gedəndə zurnaçılar ağlamalı hava çalardılar ki, ana balasından ayrıldığı üçün kövrəlsin. Nə qədər mənəm-mənəm deyən ana da olsa, o havanın təsirindən kövrəlirdi.

Keçmişdə oğlan evi bəzən gəlini uzaq yerdən gətirərdi. Həmin dövrlərdə də at nəqliyyat vasitəsi kimi aparıcı rol oynayırdı. Ona görə də Qərbi Azərbaycanda da gəlini atla gətirərmişlər.

Gərək bu adət-ənənələrin hamısını olmasa da, bir çoxunu qoruyub saxlayaq. Bu adət-ənənələr özünəməxsusluğunu itirməsin. Tariximizin, keçmişimizin yaşaması üçün bölgəmizə məxsus adətlərimizi yaşatmalıyıq". Mərhum professorun bu fikirləri Qərbi Azərbaycanın toy adətlərindən bir örnəkdir.

Ay Xınalı, Xınalı, Xınalı,
Səni ya bəy alı, ya xan alı, Xınalı
Arpa gölü sərindir, suları çox dərindir,
Ya gözlərin şevədir, ya şəvə gözlərindir.
Ay Xınalı, Xınalı, Xınalı,
Səni ya bəy alı, ya xan alı, Xınalı

Tanınmış jurnlist-yazıçı Miraslan Bəkirli isə yazır ki, Qərbi Azərbaycan toylarında gəlinin, bəyin, sağdıç və solduçun geyimi xüsusi olardı. "Hətta gəlini aparan at belə bəzənər, boynuna ağ yaylıq bağlanardı. Bizim toylarımızda qadınların geyimi də fərqli olardı. Xanımlarımız həmişə yaşmaq çəkərdilər ağız nahiyyələrinə. Gəlinin üzü həmişə örtülü olardı, duvağı salınardı başına. Heç kəs gəlinin üzünü görə bilməzdi. Elə ki, gəlin evdən çıxarılırdı həmin vaxt molla gəlib kəbini kəsməli idi. Elə ki molla evdən çıxdı artıq toyçular başlayırdı həzin musiqi çalmağa ki, gəlinin anası kövrəlib ağlasın bu da bir adət idi. Bu yaxşı mənada idi ki, ana qızını xoşbəxtliyə doğru yola salır. Gəlini atla aparmaq da qədim adətdən idi. Qız evindən oğlan evinə gedəndə də sürəkçilər olardı at sürərdilər. Burada da bir deyim vardı atını kim sürüb tez getsə idi ona pul verilirdi. Onda kəndin uşaqları qaçıb dağlara çıxırdı ki, görsün kimin atı daha tez gedib çatacaq. Ən əsası da ki, nişanlı qızlar dağa çıxardı ki, görsün at sürəkçiləri içərisində onun nişanlısı sürüb keçə biləcəkmi?

Gəlin bəy evinə gəldikdən sonra oturması üçün mütləq qayınatası gəlib deməli idi ki, ay gəlin otur sənə bir inək bağışlayacam. Sonra gəlin oturarmış. Kəndlərimizdə əsas da Göyçədə toy olacağı günü təyin ediləndən sonra zurnaçılar kəndin başından başlayacaydı toy mahnılarını çalmağa qonum-qonşu, qohumu da yığacaqdı qabağına ta ki kəndin axırına kimi çalıb oynayacaqdılar. Bu zaman toyçulara pay tutular, pul verilərdi. Bütün el-oba şənlənərdi. Toylarımızın gözü idi aşıqların gəlişi. Elə ki, aşıq toya gəldi qız-gəlin, qocacavan o toyun ətrafına dövrə vurub baxardılar. Toylarda aşıqların xeyir-dua verməsi, ustadnamələr oxuması vacib idi. Ona görə Qərbi Azərbaycanda toylar aşıqsız ola bilməzdi. Ən maraqlısı da o olurdu ki, aşıqla camaat arasında dastanlar deyilirdi. Elə olurdu bu dastanlar 4-5 gün çəkirdi. Toy sahibi bu dastanın başa vurulması üçün toy məclisini davam etdirirdi. Məclisin sonu yemək süfrəsi açılırdı. Toy məclisində hər kəsin özünə məxsus oyun havası, oyun növü vardı. Demək olar ki, toyumuzun əsasını da yallı rəqsi təşkil edirdi. İlk yallını toyu edən evin ağsaqqalı başladardı sonra oğul-qız, gəlin, cavan-uşaq qoşulardı bu oyuna. Bizdə yallı qol-boyun olaraq oynanılar. Yallı rəqsini edən hər kəs öz səmimiliyini, sevincini bidirmiş olardı. Toylarımızın bir adəti də bəyin oğurlanması idi. Bu vaxt sağdıç və solduça əsas diqqət düşürdü. Qohumlar çalışırdı ki, hər ikisinin başını qatıb, bəyi oğurlasınlar. Əgər bəy oğurlansaydı, sağdıç və solduçun üzərinə nəmər düşürdü. Sabah bəyi oğurlayanlara quzu kəsib qonaqlıq verməli idi"-deyə M.Bəkirli vurğulayıb.

Millət vəkili, tanınmış şair Musa Urudun Zəngəzurun toy adətləri ilə bağlı məqaləsi həqiqətən də bu istiqamətdə təqdim edilən dəyərli bir mətndir. "… Zəngəzurda toylar adətən ilin yay aylarında olardı. Bunun başlıca iki səbəbi var idi:

- Birincisi, dağlıq yerin iqliminə, təbiətinə görə - ilin ən gözəl, ən bərəkətli, meyvə-tərəvəzin bol və ucuz olduğu fəsli sayıldığından toyları adətən yay aylarında, xüsusən iyunun ortalarından avqustun ortalarına qədər keçirirdilər.

- İkincisi, camaatın Bakıda, Sumqayıtda, Naxçıvanda, Gəncədə və Azərbaycanın digər yerlərində yaşayan xeyli övladları, qohumları var idi ki, bu "mövsüm" zəngəzurlular da adətən yay aylarında məzuniyyət götürərdilər və dincəlmək üçün Soçiyə, Kislovodskiyə, Karlovı-Varıya deyil, Zəngəzura, doğma yurdlarına gələrdilər. Bu səbəbdən də yayda Zəngəzur toyları təkcə bir mərasim deyil, çal-çağırlı, əyləncəli kütləvi mədəniyyət hadisəsi kimi qiymətli və maraqlı idi.

Kəndlərdə hər yay 5- 8, bəzi illərdə isə 10-dan yuxarı toy olardı. Toylar yazın əvvəlindən planlaşdırılar, toy sahibləri öz aralarında hər həftə biri olmaq şərti ilə növbəliliyi razılaşdırardılar.

Toya kənd camaatının hamısı başdan-başa dəvət olunardı. Hətta toy yiyəsinin kiminləsə küsülülüyü, düşmənçiliyi var idisə də, buna baxmayaraq, həmin adam da toya dəvət edilərdi. Dəvəti qəbul edib etməmək isə qarşı tərəfin öz işi idi. Yəni, toya çağırmamaq toya gəlməməkdən daha böyük qəbahət sayılardı.

Toy 2-3 gün davam edərdi (adətən, cümə, şənbə və bazar günləri). Toydan bir-iki gün qabaq toy çörəyi bişirmə mərasimi olardı.

Zəngəzurda ailələr əsasən gənclərin qarşılıqlı sevgisi əsasında, qismən isə valideynlərin arzusu nəzərə alınmaqla qurulurdu. Oğlan qızın razılığını aldıqdan sonra öz "dərdini" ya özü birbaşa, ya da dostları vasitəsi ilə anasına çatdırardı (atalar ailənin "ağır artilleriyası" sayılırdı və yalnız vəziyyət ciddi şəkil aldıqdan sonra işə qarışardılar). Oğlanın anası, yaxud bacısı qız evinə "divardibi söhbəti"nə gedərdi. Oğlan tərəfin təklifi qız adamlarına çatdırıldıqdan bir neçə gün sonra oğlanın anası gələcək gəlinin ata evinə, qız anasının "ağzını aramağa" yollanardı. Razılıq varsa, növbəti mərhələ-elçilik başlanardı.

Elçiliyə oğlanın atası və anası, əmi-dayısı və digər ağsaqqallar gedərdilər (10 nəfərə qədər). Təxminən o qədər də adam qız tərəfdən yığışardı.

Əvvəllər elçiliyə bir yaylıq aparardılar, əgər razılıq əldə edilərdisə, oğlanın anası yaylığı gələcək gəlinin başına örtərdi. Son illərdə də yaylıq, yaxud bir nazik üzük aparardılar.

Elçilikdə adətən obrazlı, bənzətmələrlə, yarızarafat-yarıciddi söhbət aparılardı. Çox güman ki, razılıq əldə olunmayacağı halda pərtlik yaranmasın deyə söhbətin tonu əvvəlcədən bu cür seçilirdi.

Hər şey çaydan başlayardı. Ev yiyəsi süfrəyə çay gətirər, qonaqlar əllərini çaya uzatmazdılar. "Çayımıza - çörəyimizə nə gəlib, gəlinimizə məəttəlik" və s. bu yöndə söhbətlər məclisi şirinləşdirərdi.

Qız tərəfin ağsaqqalı "Allah xeyir versin, ağzınızı şirin eləyin" dedikdən sonra şirin çay içilərdi. Çay süfrəsindən sonra stola yemək-içmək gətirilərdi.

Elçiliyin bütün xərclərini qız evi çəkərdi. Elçilikdən sonra nişan mərasimi gəlirdi.

Nişanın xərclərini oğlan evi, bir qayda olaraq natura şəklində çəkirdi. Qızıl nişan üzüyü, qıza lazım olacaq nə qədər geyim və bəzək əşyaları var idisə, nişanda oğlan evi xüsusi dəm-dəsgahla qız evinə apardı. Bircə ayaqqabı aparmazdı. Ayaqqabı sıxıntı, darısqallıq rəmzi sayıldığı üçün. Nişana qonaqları qız evi dəvət edərdi. Qonaq deyəndə, əslində kəndin bütün qız-gəlini nişanın iştirakçısı olardı. Hər adam bir xonça gətirərdi. Xonçanın içinə şirniyyat, parça, gəlin üçün paltar, ətir qoyulardı. Nişan musiqinin müşayiəti ilə keçirilərdi. Musiqiçiləri dəvət etməyə imkan olmadıqda maqnitafon və patefon da yarayardı.

Nişanda oğlan öz yaxın dostları ilə birgə iştirak edərdi. Üzüyü qızın barmağına oğlan evindən olan qadınlardan biri taxardı.

Nişandan bir müddət sonra oğlan bir, ya iki yaxın dostu ilə birlikdə əvvəlcədən xəbərdarlıq edərək qız evinə tanışlığa gedərdi".

M.Urud qeyd edir ki, toy ərəfəsində söz kəsdi və paltar biçdi mərasimləri olardı, sonra toy çörəyi bişirilərdi, toy çadırı qurulardı, toy xınası haxırlanar və toyun birinci axşamı həm də xına yaxdı ilə əlamətdar olardı. Bəyin oğurlanması, gəlinin gətirilməsi, toy ziyafəti, xonça axşamı və başqa adətlər Qərbi Zəngəzur toyunun əsas elementlərindən olub.

Heç şübhəmiz yoxdur ki, Qərbi Azərbaycan, Qərbi Zəngəzur elləri yenidən yurdlarına dönəcəklər və burada ənənəvi toy adətlərini yenidən canlandıracaqlar, ellərimizdə toy çadırları qurulacaq, qara zurnanın səsi dağları-daşları oynadacaq, aşıqların sazı ürəklərimizə nur çiləyəcək…

*İradə SARIYEVA*